**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# QLOBAL İQTİSADİ BÖHRANLARIN İQTİSAD ELMİNİN PRİORİTETLƏRİNƏ TƏSİRİ (2020-Cİ İL PANDEMİYASININ TİMSALINDA)

İxtisas: 5307.01 - İqtisadi nəzəriyyə

Elm sahəsi: 53 - İqtisad elmləri

İddiaçı: **Qəhrəman Məhəmməd oğlu Piriyev**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı -2026**

Dissertasiya işi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun "İqtisadi siyasətin nəzəri əsasları" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər : iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Asif Mirlazım oğlu Mustafayev**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, dosent
**Leyli Əli qızı Allahverdiyeva**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Asiman Aydın oğlu Quliyev**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Laçın Vəzir oğlu Abışlı**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.10 Dissertasiya şurası

Dissertasiya şurasının sədri:

__________________ iqtisadi elmləri doktoru, professor
**Nazim Müzəffər oğlu İmanov**

Dissertasiya şurasının elmi katibi:

__________________ iqtisad üzrə fəlsəfə doktoru
**Sevda Məmməd qızı Seyidova**

Elmi seminarın sədri:

__________________ iqtisad elmləri doktoru, professor
**Fuad Əlinağı oğlu Qənbərov**

# TƏDQİQAT İŞİNİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövrdə iqtisad elmi qlobal miqyasda dinamik və dərin struktur dəyişiklikləri ilə üzləşmişdir. Son illərdə baş verən böhranlar, xüsusilə də 2020-ci il pandemiyası iqtisadi nəzəriyyənin mövcud yanaşmalarını ciddi şəkildə sınağa çəkmiş, iqtisad elminin prioritet istiqamətlərini yenidən müəyyənləşdirmə zərurətini doğurmuşdur. Dünyanı sarsıdan pandemiya sadəcə sağlamlıq böhranı deyil, eyni zamanda iqtisadi fəaliyyətin demək olar ki, bütün sahələrinə təsir edən çox ölçülü bir iqtisadi şok olmuşdur. Əgər əvvəlki onilliklərdə iqtisadi inkişaf, artım modelləri və bazarların effektivliyi kimi istiqamətlər prioritet təşkil edirdisə, bu gün iqtisadi sabitlik, davamlılıq, qeyri-müəyyənlik şəraitində idarəetmə və sosial inklüzivlik kimi məsələlər ön plana keçmişdir. Ənənəvi iqtisadi prioritetlər – makroiqtisadi sabitlik, iqtisadi artım, inflyasiyanın nəzarətdə saxlanılması və fiskal balans – pandemiya dövründə öz aktuallığını saxlamış olsa da, yeni reallıqlar və çağırışlar iqtisad elminin diqqət mərkəzinə bir çox yeni istiqamətləri gətirmişdir. Məsələn, dövlətin iqtisadiyyatda rolunun gücləndirilməsi, sosial müdafiə sistemlərinin effektivliyinin artırılması, əmək bazarının çevikliyi və rəqəmsallaşması, qlobal təchizat zəncirlərinin dayanıqlılığı və yaşıl iqtisadiyyat əsas prioritetlər olaraq elmi və praktik tədqiqatların ön sıralarına keçmişdir. Digər tərəfdən pandemiya əmək bazarında və iqtisadi fəaliyyətlərin təşkilində dərin transformasiyalara səbəb oldu. Uzaqdan iş rejimi, elektron ticarətin genişlənməsi və rəqəmsal xidmətlərin yüksəlişi iqtisadi strukturların gələcəkdə hansı istiqamətdə inkişaf edəcəyinə dair suallar doğurdu. Bu da iqtisad elmini texnologiya, rəqəmsallaşma və innovasiya sahələrində dərin və interdisiplinar tədqiqatlara sövq edərək iqtisad elmi üçün yeni tədqiqat prioritetlərinə çevirmişdir.

Təchizat zəncirlərindəki pozulmalar bir çox ölkənin xarici bazarlardan asılılıq dərəcəsini yenidən qiymətləndirməsinə səbəb oldu. Bu isə iqtisadi təhlükəsizlik, daxili istehsalın təşviqi və strateji ehtiyatların formalaşdırılması kimi anlayışların aktuallaşmasına gətirib çıxardı. Beləliklə, iqtisad elmi qlobal əlaqəliliklə yanaşı,

iqtisadi suverenlik və yerli dayanıqlılıq kimi anlayışları da nəzərdən keçirməyə başladı. Pandemiyadan sonrakı dövrdə bir çox ölkənin bərpa proqramlarında “yaşıl keçid”, “davamlı inkişaf” və “ekoloji transformasiya” kimi anlayışlar mərkəzi yer tutdu.

Bütün bu proseslər göstərdi ki, iqtisad elminin prioritetləri sabit və dəyişməz deyil; əksinə, ictimai və qlobal reallıqlara uyğun olaraq daim yenilənməli və adaptasiya olunmalıdır. Bu baxımdan 2020-ci il pandemiyası iqtisad elmi üçün həm bir çağırış, həm də bir fürsət rolunu oynamışdır. Belə bir şəraitdə iqtisad elmi yalnız mövcud vəziyyəti təhlil etmək yox, həm də yeni və çevik yanaşmalar təklif etmək və iqtisadi siyasətlərin strukturunu yenidən qurmaq vəzifəsi ilə qarşılaşdı. Bu, yalnız iqtisadi artım templərinin bərpası ilə deyil, eyni zamanda sistem risklərinin erkən aşkarlanması, adaptiv siyasət mexanizmlərinin yaradılması və ictimai rifahın bərabər şəkildə təmin olunması ilə əlaqədardır. Beləliklə, iqtisad elmi ənənəvi tədqiqat prioritetlərindən çıxaraq yeni reallıqlara cavab verən multidissiplinar yanaşmalar tələb edir.

Dünya təsərrüfatında müxtəlif səbəblərdən baş verən böhran hadisələrinin tədqiqi ilə bağlı məsələlər bəşər tarixində həmişə müxtəlif fikirli yanaşmaların olması ilə səciyyələndiyindən bu cür tədqiqatların aparılmasında müəyyən çətinliklər yaranır. Pandemiyanın baş verməsi ilə əlaqədar olaraq dünya ölkələrində yaranan yeni siyasi və etik dilemmalar nəticəsində bəşəriyyətin inkişaf tendensiyaları da yeni müstəvidə inkişaf etməyə başladığından, cəmiyyətdə baş verən böhranlara münasibətin dəyişməsi 2020-ci il pandemiyasının sənayenin geniş spektrində müəssisələr arasında sistemli problemlərin aşkar edilməsi ilə nəticələnir. Bu baxımdan 2020-ci il pandemiyasının timsalında qlobal iqtisadi böhranların iqtisad elminin prioritetlərinə təsirinin araşdırılması Azərbaycanın sosial-iqtisadi inkişafına dair Milli Prioritetlərin əsas istiqamətləri üzrə ölkə iqtisadiyyatının dayanıqlı və davamlı inkişafının təmin edilməsi məqsədi ilə xüsusi zəruri əhəmiyyət daşıyır.

Böhranlar orta və uzunmüddətli iqtisadi inkişaf dövrlərinin tərkib hissəsi olduğundan böhranların səbəblərinin pul dövriyyəsində yaranan çatışmazlıq nöqteyi-nəzərindən izahı və iqtisadiyyatın

antiböhran tənzimlənməsi nəzəriyyəsi B. Bernanke, J. M. Keyns, I. Fisher, M. Fridman, F. Hayek kimi iqtisadçıların elmi əsərləri, ölkə iqtisadiyyatında baş verən maliyyə-iqtisadi böhranlarının nəzəri-metodoloji problemləri rus iqtisadçı alimlərindən E.A.Babuşkinanın, O.B.Butorinanın, L.P.Bardomskanın, E.Qaydarın, Q.P.Qriqoryev, M.G.Delyaginin, B.N.Kuzykanın, V.V.Leontievanın, E.H.Lobaçevanın, V.A.Mayın, V.I.Mayevskinin, T.Yu.Matveevanın, S.N.Silvestrovanın, P.M.Entovanın, Yu.V.Yakovetsin və başqalarının əsərlərində şərh edilmişdir.

Dünyada baş verən qlobal iqtisadi böhranların iqtisadiyyata təsirləri ilə bağlı məsələlərin araşdırılmasında respublikamızın iqtisadçı alimlərindən Akademik Z.A.Səmədzadə, AMEA-nın müxbir üzvü Ş.M.Muradov, AMEA-nın müxbir üzvü A.F. Musayev, N.M.Müzəffərli, Ş.Qafarov, F.Ə.Qənbərov, G.Z.Yüzbaşıyeva, T.M.Qurbanov, Ə.Məsimli, A.M.Mustafayev, D.Ə.Vəliyev, V.Zeynalov, F.H.Qasımov, Z.F.Məmmədov və başqalarının əsərlərində geniş şəkildə araşdırılaraq bu istiqamətdə aparılan tədqiqat işlərinə töhfə vermişdir.

Dissertasiya işinin mövzusuna aid olan məsələlərlə bağlı xarici ölkə alimlərindən Joseph Stiglitz, Carmen Reinhart & Kenneth Rogoff, Paul Krugman, Nouriel Roubini, Mariana Mazzucato, Barney Jay B., Garrison Ray H., Collis David J., Taylor Hazel M., Ren J. və başqalarının da əsərlərində qlobal iqtisadi böhranların iqtisadiyyata təsirinin araşdırılması geniş tədqiq olunmuşdur. Tədqiq olunan dissertasiya işi ilə bağlı istiqamətdə aparılan araşdırmalar iqtisadi böhranların iqtisadiyyatın müxtəlif sahələrinə mənfi təsirinin azaldılması istiqamətində müsbət rol oynasa da, 2020-ci il pandemiyasının təsiri nəticəsində baş verən qlobal iqtisadi böhranların iqtisad elminin prioritetlərinə təsiri ayrıca və kompleks tədqiqat obyekti kimi kifayət qədər araşdırılmamışdır.

Məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2 fevral 2021-ci il tarixində imzalanmış "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Sərəncamda ölkənin sosial-iqtisadi inkişafına dair 5 əsas Milli Prioritetin reallaşdırılmasında nəzərdə tutulan məsələlərdən biri də iqtisadiyyatın dayanıqlı və davamlı

inkişafı, insan kapitalının inkişafı ilə bağlı məsələlərdir. Bu baxımdan Azərbaycan iqtisadiyyatının müasir mərhələsində qlobal iqtisadi böhranların, o cümlədən, ölümcül pandemiya kimi xarakterizə edilən, 2020-ci il pandemiyasının iqtisadiyyata təsirlərinin araşdırılması, onun təsirinin minimumlaşdırılması istiqamətlərinin elmi metodlarının müəyyən məsələləri mühüm nəzəri və praktiki əhəmiyyət kəsb edir. Dissertasiya işində yerli və xarici alimlərin tədqiqat işləri təhlil edilərək onlara münasibət bildirilmiş və müəyyən edilmişdir ki, Azərbaycan Respublikasında bu istiqamətlər üzrə 2020-ci il pandemiyasının timsalında iqtisadi böhranların iqtisad elminin prioritetlərinə təsirini kompleks əhatə edən tədqiqat işi aparılmamışdır. Bu baxımdan dissertasiya işinin mövzusu ilə bağlı problemlərin müəyyən edilməsi və həll edilməsi üzrə tədqiqat işinin aparılması zamanın tələbindən irəli gəlir.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqatın obyekti pandemiya dövründə iqtisad elminin prioritetləridir. Tədqiqatın predmetini isə qlobal iqtisadi böhranların, xüsusilə 2020-ci il pandemiyasının timsalında iqtisad elminin prioritet istiqamətlərinə təsiri ilə bağlı yaranan iqtisadi münasibətlər və nəzəri yanaşmalar təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** 2020-ci il pandemiyasının timsalında qlobal iqtisadi böhranların iqtisad elminin prioritetlərinə təsirini nəzəri və empirik baxımdan araşdırmaq, bu əsasda Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafı üzrə elmi cəhətdən əsaslandırılmış nəticə və təkliflər irəli sürməkdir. Dissertasiya işinin məqsədinə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- Müasir dövrdə iqtisadi böhranların iqtisad elminin prioritetlərinə təsirinin nəzəri və metodoloji aspektlərinin araşdırılması;
- Qlobal iqtisadi böhran şəraitində inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin antiböhran siyasəti üzrə beynəlxalq təcrübənin öyrənilməsi;
- Qlobal iqtisadi böhranların iqtisad elminin prioritetlərinə təsirinin müasir inkişaf meyillərinin tədqiqi;

- ➢ XXI əsrin iqtisadi böhranlarının Azərbaycan iqtisadiyyatına təsirinin iqtisad elminin prioritetləri baxımından müqayisəli təhlili;
- ➢ Pandemiya dövründə İKT-nin inkişafının rəqəmsal iqtisadiyyatın prioritet istiqaməti kimi iqtisadi fəaliyyətə təsirinin qiymətləndirilməsi;
- ➢ Qlobal maliyyə böhranlarının iqtisad elminin prioritetləri kontekstində iqtisadi artıma təsirinin modelləşdirilməsi;
- ➢ İnvestisiya cəlbediciliyi və tədiyyə balansı dayanıqlılığının iqtisad elminin prioritet istiqamətləri kimi qiymətləndirilməsi;
- ➢ Antiböhran mexanizmlərinin iqtisad elminin prioritetləri baxımından təkmilləşdirilməsi yollarının müəyyən edilməsi;
- ➢ Tədqiqat nəticələri əsasında elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin hazırlanması.

**Tədqiqat metodları.** Aparılan elmi tədqiqat işi indeks, müqayisəli təhlil, induksiya-deduksiya, iqtisadi-riyazi modelləşdirmə, ekonometrik təhlil və qiymətləndirmələr kimi tədqiqat metodları əsasında yerinə yetirilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Dünya iqtisadiyyatında baş verən qlobal iqtisadi böhranların iqtisad elminin inkişaf istiqamətlərinə və tədqiqat prioritetlərinə təsiri nəzəri-konseptual baxımdan təhlil edilmiş, iqtisadi sistemlərin dayanıqlılığı, rəqəmsal transformasiya, iqtisadi təhlükəsizlik və sosial inklüziv inkişaf kimi prioritet istiqamətləri müəyyən edən elmi yanaşmalar sistemləşdirilmişdir.

2. Aparılmış tədqiqat göstərir ki, qlobal iqtisadi böhranlar şəraitində iqtisad elminin əsas prioritet istiqamətlərindən biri makroiqtisadi sabitliyin qorunması və antiböhran iqtisadi siyasətinin effektiv mexanizmlərinin formalaşdırılmasıdır. Müəyyən edilmişdir ki, iqtisadi böhranlar makroiqtisadi tarazlığın pozulmasına səbəb olaraq beynəlxalq ticarət münasibətlərinə və iqtisadi inkişaf tempinə əhəmiyyətli təsir göstərir və yüksək gəlirli ölkələrdə daha geniş fiskal siyasət alətlərinin tətbiqi ilə müşayiət olunur.

3. Tədqiqat göstərir ki, qlobal iqtisadi böhranlar şəraitində iqtisad elminin mühüm prioritet istiqamətlərindən biri sosial inklüziv inkişafın təmin edilməsi və sosial müdafiə mexanizmlərinin təkmilləşdirilməsidir. Müəyyən edilmişdir ki, 2020-ci il pandemiyası cəmiyyətin həssas əhali qruplarına daha güclü təsir göstərmiş və aşağı gəlirli əhali qrupları arasında işsizlik, ərzaq təhlükəsizliyi problemləri və sosial bərabərsizlik daha kəskin xarakter almışdır.

4. Tədqiqat göstərir ki, qlobal iqtisadi böhranlar şəraitində iqtisad elminin prioritet istiqamətlərindən biri xammal resurslarından asılı iqtisadiyyatların struktur diversifikasiyası və xarici şoklara qarşı dayanıqlılığının artırılmasıdır. Müəyyən edilmişdir ki, 2020-ci il pandemiyası dövründə dünya bazarında neftin qiymətinin 3,25 dəfə azalması Azərbaycan iqtisadiyyatının makroiqtisadi göstəricilərinə əhəmiyyətli təsir göstərmişdir.

5. Qlobal iqtisadi böhranlar şəraitində rəqəmsal iqtisadiyyatın inkişafı və innovasiya əsaslı iqtisadi artımın təmin edilməsi iqtisad elminin mühüm prioritet istiqamətlərindən biri kimi çıxış edir. Müəyyən edilmişdir ki, pandemiya dövründə Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sektorunun gəlirləri artmış, ekonometrik təhlil nəticəsində İKT investisiyalarının və əlavə dəyərinin artımının ÜDM-in artımına müsbət təsir göstərdiyi müəyyən edilmişdir.

6. Qlobal iqtisadi böhranlar şəraitində iqtisadi artımın determinantlarının və xarici iqtisadi əlaqələrin iqtisadi inkişafda rolunun tədqiqi iqtisad elminin mühüm prioritet istiqamətlərindən biridir. Qurulmuş iqtisadi-riyazi model nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanda adambaşına düşən ixrac, idxal və investisiya qoyuluşlarının artması adambaşına düşən ÜDM-in artımını şərtləndirən əsas amillərdəndir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin başlıca elmi yenilikləri aşağıdakılardan ibarətdir:

1. Qlobal iqtisadi böhranların təsiri şəraitində iqtisad elminin mühüm prioritet istiqamətlərindən biri iqtisadiyyatın struktur dayanıqlılığının təmin olunması və xammal resurslarından asılılığın azaldılmasıdır. Aparılmış tədqiqat nəticəsində Azərbaycan iqtisadiyyatında qlobal maliyyə-iqtisadi böhranların xarici və daxili

ötürülmə kanalları müəyyən edilmiş və karbohidrogen ixracına əsaslanan iqtisadi strukturun ÜDM-in artım templərinin azalmasını dərinləşdirdiyi empirik olaraq əsaslandırılmışdır.

2. Pandemiya dövründə rəqəmsal iqtisadiyyatın iqtisadi tsikllərdə stabilləşdirici rolu qiymətləndirilmiş və müəyyən edilmişdir ki, rəqəmsal xidmətlərin ÜDM-ə təsiri, süni intellektin məhsuldarlığa inteqrasiyası və blokçeyn texnologiyalarının makroiqtisadi göstəricilərlə əlaqəsi iqtisad elminin yeni tədqiqat prioritetlərini formalaşdırır.

3. Qlobal iqtisadi qeyri-sabitlik şəraitində iqtisad elminin prioritet istiqamətlərindən biri xarici iqtisadi əlaqələrin və tədiyyə balansının dayanıqlılığının təmin edilməsinin tədqiqidir. Aparılmış ekonometrik qiymətləndirmə nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanda investisiya qoyuluşlarının 1% artması tədiyyə balansını 0,74%, ixracın 1% artması 0,18% artırır, idxalın 1% artması isə tədiyyə balansını 1,14% azaldır.

4. Qlobal böhranlar şəraitində iqtisadi artımın formalaşma mexanizmlərinin araşdırılması iqtisad elminin mühüm prioritet istiqamətlərindən biridir. Azərbaycanda aparılmış ekonometrik modelləşdirmə nəticəsində müəyyən edilmişdir ki, adambaşına düşən ixracın 1% artması ÜDM-i 0,05%, idxalın 1% artması 0,01%, investisiya qoyuluşlarının 1% artması isə 0,09% artıraraq iqtisadi artımın əsas determinantlarından biri kimi çıxış edir.

5. Dünya üzrə ÜDM-in trendinə əsaslanan loqarifmik proqnoz modeli qurulmuş və müəyyən edilmişdir ki, qlobal iqtisadi böhranlar qısamüddətli dövrdə ÜDM artımına mənfi təsir göstərsə də, uzunmüddətli qlobal artım trayektoriyasını həlledici şəkildə dəyişmir. Bu, iqtisad elminin prioritet istiqamətlərindən biri kimi qısamüddətli şoklara qarşı dayanıqlılıq mexanizmlərinin və uzunmüddətli inkişaf meyillərinin qarşılıqlı əlaqəsinin tədqiqini aktuallaşdırır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində aparılan araşdırmalardan əldə olunan nəticələr dünyada baş verən qlobal iqtisadi böhranların yaranma səbəbi, xüsusiyyətləri, makroiqtisadi təsirləri və böhranların aradan qaldırılması ilə bağlı məsələlərin həlli istiqamətində aparılan tədqiqatlarda, dövlət

proqramlarının hazırlanmasında və s. istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin mövzusunu əhatə edən əsas məsələlərlə bağlı 6 elmi məqalə, həmçinin 3 konfrans materialı müəllif tərəfindən yerli və xarici jurnallarda dərc edilmişdir. Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində, o cümlədən, Effects of the Covid-19 Crisis on the economy, IX International Scientific and Practical Conference Challenges and problems of modern science London, United Kingdom 2023, How Pandemics Drive Government And Business-Oriented Actions In Ensuring Corporate Social Responsibility, VIII International Scientific and Practical Conference The modern vector of the development of science Philadelphia, USA 2023 və Effects of the Covid-19 Crisis on Azerbaijan-Economic Analysis (analysis of 2019-2021), X International Scientific and Practical Conference Challenges and problems of modern science London, United Kingdom 2023–cü ildə keçirilən konfrans materiallarında dərc edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu.

**Disstertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş (16946 işarə), üç fəsildən (I Fəsil -78308 işarə, II Fəsil – 57509 işarə, III Fəsil–56735 işarə) və nəticədən (8554 işarə) ibarətdir. Ümumilikdə dissertasiyanın həcmi 218052 işarədən ibarət olmaqla 185 səhifə, 181 sayda ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN STRUKTURU

**GİRİŞ**

**I FƏSİL. QLOBAL İQTİSADİ BÖHRANLARIN İQTİSAD ELMİNİN PRİORİTETLƏRİNƏ TƏSİRİNİN NƏZƏRİ-METODOLOJİ MƏSƏLƏLƏRİ**

1.1. Müasir dövrdə iqtisadi böhranların iqtisad elminin prioritetlərinə təsirinin tədqiqinin nəzəri və metodoloji aspektləri

1.2. Qlobal iqtisadi böhran şəraitində inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin antiböhran siyasəti üzrə beynəlxalq təcrübə

1.3. Qlobal iqtisadi böhranların iqtisad elminin prioritetlərinə təsirinin müasir inkişaf meyilləri

**II FƏSİL. QLOBAL İQTİSADİ BÖHRANLARIN İQTİSAD ELMİNİN PRİORİTETLƏRİNƏ TƏSİRİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ**

2.1.XXI əsrin iqtisadi böhranlarının iqtisad elminin prioritetlərinə təsirinin müqayisəli təhlili

2.2. Azərbaycanda COVİD-19 pandemiyasının iqtisadiyyatın real sektoruna təsirinin təhlili və qiymətləndirilməsi

2.3.Pandemiya dövründə rəqəmsal iqtisadiyyatın iqtisadi fəaliyyətin dinamikasına təsirinin qiymətləndirilməsi

**III FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA QLOBAL İQTİSADİ BÖHRANLARA QARŞI İQTİSADİYYATIN TƏNZİMLƏNMƏ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ**

3.1.Qlobal maliyyə böhranlarının iqtisad elminin XXI əsr üzrə prioriteti kimi iqtisadi artıma təsirinin modelləşdirilməsi

3.2.Qlobal iqtisadi böhranların ölkənin investisiya cəlbediciliyinə və tədiyyə balansına təsirinin azaldılması istiqamətləri

3.3.Qlobal iqtisadi böhranların Azərbaycan iqtisadiyyatına təsirinin yumşaldılmasında antiböhran mexanizmlərinin təkmilləşdirilməsi yolları

**NƏTİCƏ**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı, işlənmə səviyyəsi vurğulanmış, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, tədqiqat metodları əks olunmuş, müdafiəyə çıxarılan əsas müddəalar və işin elmi yeniliyi göstərilmiş, dissertasiyanın yerinə yetirildiyi təşkilatın adı, onun quruluşu və həcmi adlanan yarımbaşlıqlarda müvafiq məlumatlar verilmişdir. Girişdə pandemiyanın iqtisad elminin prioritetlərinə təsiri, qlobal iqtisadi disbalansların yaranması və beynəlxalq ticarət dövriyyəsinin azalması kimi məsələlər elmi əsaslarla göstərilmişdir.

Dissertasiyanın **"Qlobal iqtisadi böhranların iqtisad elminin prioritetlərinə təsirinin nəzəri-metodoloji məsələləri"** adlanan birinci fəslində problemin öyrənilməsi əsasən üç istiqamətdə aparılmışdır. Bu fəsildə müasir dövrədək iqtisad elminin prioritetləri müəyyənləşdirilmiş və əsrlər üzrə bu prioritetlərin necə dəyişdiyini, baş verən iqtisadi böhranların iqtisad elminin prioritetlərinə təsirinin nəzəri və metodoloji aspektləri sistemli şəkildə araşdırılmış, iqtisadi nəzəriyyələrin tarixi kontekstdə formalaşması və böhranların bu nəzəriyyələrin inkişafına necə təsir etdiyinə dair çoxşaxəli təhlillər aparılmışdır. Qlobal iqtisadi böhranların tarixi təcrübələri və inkişaf etmiş bazar iqtisadiyyatı olan ölkələrin antiböhran siyasətləri araşdırılmışdır. Xüsusilə, qlobal böhranların inkişaf etmiş ölkələrdə iqtisadi siyasətlərə necə təsir etdiyi və antiböhran siyasətlərinin tətbiqi məsələləri aydın şəkildə təhlil edilmişdir. Qlobal iqtisadi böhranların iqtisad elminin prioritetlərinə və müasir inkişaf meyillərinə təsiri, müxtəlif iqtisadi modellərin və nəzəriyyələrin böhranlar zamanı necə təkamül etdiyi, həmçinin innovasiyaların və struktur dəyişikliklərinin iqtisadi böhranlara qarşı necə effektiv təsir göstərdiyi araşdırılmışdır.

Müxtəlif əsrlərdə iqtisad elminin prioritetləri dövrün iqtisadi reallıqlarına uyğun formalaşmışdır: XVII əsrdə milli sərvətin yığılması, XVIII əsrdə bazarın özünü tənzimləməsi və əmək bölgüsü, XIX əsrdə kapital-əmək münasibətləri və gəlir bölgüsü, XX əsrdə makroiqtisadi sabitlik və dövlət müdaxiləsi, XXI əsrdə isə sosial

bərabərlik, dayanıqlı inkişaf və texnoloji transformasiyalar ön plana çıxmışdır. Bu prioritetlərin təhlili iqtisad elminin nəzəri təkamülünü və müasir iqtisadi problemlərin elmi əsaslarının formalaşmasını anlamağa imkan verir. Aşağıdakı cədvəldə XVII–XXI əsrlər üzrə iqtisad elminin əsas prioritetləri, inkişaf mərhələləri, nəzəri yanaşmalar və aparıcı iqtisadi düşünürlər sistemləşdirilmişdir.

**Cədvəl 1.**

| Əsr | İqtisad Elminin Prioritetləri | Əsas Nəzəriyyələr | Aparıcı İqtisadçılar |
|---|---|---|---|
| **XVII** | Dövlətin zənginliyinin artırılması,ticarət balansının qorunması,ixracın təşviqi, dövlət müdaxiləsi | Merkantilizm | Thomas Mun, Jean-Baptiste Colbert, Antonio Serra |
| **XVIII** | Təbii qanunlarla idarə olunan iqtisadiyyat,əmək bölgüsü,azad bazar, görünməz əl konsepsiyası | Fiziokratiya, klassik iqtisad | Adam Smith, François Quesnay, David Hume |
| **XIX** | Qiymət mexanizmi, əmək dəyəri nəzəriyyəsi sərbəst rəqabət,kapital və əmək münasibətləri | Klassik iqtisad, marksizm | David Ricardo, John Stuart Mill, Karl Marks |
| **XX** | İqtisadi tsikllərin tənzimlənməsi,dövlətin iqtisadiyyata müdaxiləsinin əsaslandırılması,monetar siyasət | Keynsçilik, monetarizm, yeni klassik və yeniyKeynsçilik | John Maynard Keynes,Milton Friedman, Friedrich Hayek |
| **XXI** | Pandemiya dövründə qlobal iqtisadi inteqrasiya, dayanıqlı inkişaf və iqlim iqtisadiyyatı,bərabərlik və ədalət, rəqəmsallaşmanın iqtisadiyyata təsiri,yaşıl iqtisadiyyat | Davranışsal iqtisad,beynəl-xalq iqtisad, rəqəmsal iqtisad,İnformasiya iqtisadı | Joseph Stiglitz, Amartya Sen, Esther Duflo, Paul Krugman |

*Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.*

Bu təsnifatdan istifadə edərək iqtisad elminin prioritetlərinin zamanla necə dəyişdiyini və qlobal iqtisadi böhranların XXI əsrdə iqtisad elminin əsas prioritetləri olan rəqəmsallaşmaya, dayanıqlı inkişafa, qlobal ticarət və iqtisadi inteqrasiyaya, təchizat zəncirlərinə, iqtisadi bərabərliyə, yüksək əlavə dəyərli istehsal və ixrac strategiyalarına göstərdiyi təsirləri təhlil edərək nəticə etibarı ilə

iqtisadi siyasətlərin yenidən qurulmasına dair təkliflər təqdim edə bilərik.

Tədqiqatlar göstərir ki, yüksək gəlirli ölkələrdə iqtisadi böhranlar daha uzun davam edir və aşağı-orta gəlirli ölkələrlə müqayisədə daha böyük məhsul itkiləri, yüksək fiskal xərclər, bank zəmanətlərinin və genişləndirici makrosiyasətlərin daha geniş tətbiqi ilə müşayiət olunur. Bu səbəbdən böhranlar inkişaf etmiş ölkələrin iqtisadiyyatlarına daha çox zərər vurur. Məsələn, dünya böhranları bazar iqtisadiyyatı geniş formalaşmış Cənubi Koreya, Tayland, Malayziya, İndoneziya, Çin, Braziliya, Türkiyə və Rusiya kimi ölkələrdə ÜDM-in təxminən 26%-i həcmində zərərə səbəb olmuş, digər inkişaf etməkdə olan ölkələrdə isə bu göstərici ümumilikdə 1,6% olmuşdur. Böhranlar həmçinin dövlət borcunun ÜDM-də payının artmasına da təsir göstərmişdir.




**Qrafik 1. 2021-ci ildə dünya ölkələri üzrə dövlət borcunun ÜDM-də payı %-lə.**

*Mənbə: Dünya Bankının statistik məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Göründüyü kimi, aşağı gəlirli ölkələrlə müqayisədə əsasən aşağı orta gəlirli və yüksək orta gəlirli ölkələrin dövlət borcunun ÜDM-də payı daha yüksəkdir. Azərbaycanın dövlət borcunun ÜDM-də payı isə 2021-ci ildə 17% təşkil edərək digər ölkələrə nisbətən əhəmiyyətli dərəcədə aşağı olmaqla bərabər, iqtisadi təhlükəsizlik üzrə astana həddindən 8% aşağıdır. Tədqiqatlar göstərir ki, COVİD-19 pandemiyasınadək 2007-2008-ci illərdə bank böhranı vəziyyətinin yaşayan ölkələrin

iqtisadiyyatları arasında təqribən 85%-i hələ də böhrandan əvvəlki tendensiyalardan aşağı hasilata malikdir. Azərbaycandan sonra, dövlət borcunun ÜDM-də payına görə Rusiya digər dövlətlərlə müqayisədə üstün mövqeyə sahibdir (19%)[1]. 2020-ci il pandemiyası beynəlxalq ticarətə də əsaslı şəkildə təsir etmişdir. Aşağıdakı qrafikdə dünya üzrə 2007-2023-cü illəri əhatə edən ixrac məhsullarının həcmindən bunları görmək olar[2].




**Qrafik 2. Dünya üzrə mal və xidmətlərin ixracı, trilyon ABŞ Dolları ilə.**

*Mənbə: Dünya bankının məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.*

Qrafikə əsasən dünya iqtisadiyyatında beynəlxalq ticarət üzrə ixracın həcmi ilə zaman amili arasında $y = 3{,}6027\ln(x) + 15{,}851$ loqarifmik formalı orta korrelyasiya asılılığı vardır. Göründüyü kimi, dünyada baş verən COVİD -19 pandemiyası dövründə ixracın həcmi beynəlxalq ticarətdə azalaraq 2020-ci ildə 22,55 trilyon ABŞ Dolları olmuşdur. Bu isə 2019-cu illə müqayisədə 9,3% azalma deməkdir. 2020-ci il pandemiyası beynəlxalq ticarət münasibətlərinə güclü təsir

[1] Фатхутдинов, Р. Инновационный менеджмент / Р.Фатхутдинов. – Санкт-Петербург: Питер, – 2011. – 420 с.

[2] www.worldbank.org

göstərməklə, ÜDM-in azalmasına və bütünlükdə iqtisadiyyatın inkişafında ləngimələrə səbəb olmuşdur. Pandemiyanın təsirlərinin qarşısının alınması və aradan qaldırılması məqsədi ilə COVID-19 böhranına qarşı yönələn maliyyə xərclərinin ÜDM-də payının artması da beynəlxalq ticarətin ləngiməsini şərtləndirmişdir. Bunu aşağıdakı qrafikdə qeyd olunmuş ölkələr üzrə daha aydın görmək mümkündür:




**Qrafik 3. Gəlir qrupu üzrə seçilmiş ölkələrin, COVID-19 böhranına qarşı yönələn maliyyə xərclərinin ÜDM-də payı,%-lə**
*Mənbə: Dünya bankının məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.*

Qrafikdən göründüyü kimi  gəlir qrupu üzrə seçilmiş ölkələrin, COVID-19 böhranına qarşı yönələn maliyyə xərclərinin ÜDM-də payı ABŞ,  Birləşmiş Krallıq, Yaponiya və İtaliyada, eləcə də orta yüksək gəlirli ölkələrdə daha yüksək olmuşdur. Xərclərin artması və bəzi ölkələrdə tələb-təklif tarazlığının pozulması 2020-ci ildə beynəlxalq ticarətə ciddi təsir göstərərək iqtisadi inkişafın ləngiməsinə səbəb olmuşdur.

COVID-19 pandemiyasının 2020-ci ildə yayılması göstərdi ki, bir çox ev təsərrüfatları və müəssisələr uzunmüddətli pandemiya

şokuna hazır deyillər. Statistikaya görə, həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə ev təsərrüfatlarının 50%-dən çoxu gəlir itkisi olduqda əsas istehlakı üç aydan artıq təmin edə bilmir. Bu vəziyyət orta sahibkarlıq subyektlərinə də təsir edərək böhranın idarə olunmasını çətinləşdirmiş, səhiyyə xərclərinin artması və gəlirlərin azalması isə yaranan borclarla mübarizəni daha da gücləndirməyi tələb etmişdir.

Pandemiyanın yaratdığı böhran qlobal yoxsulluğa və bərabərsizliyə olduqca dramatik təsir göstərdi. Aşağıdakı qrafikdən bunları daha aydın görə bilərik.




**Qrafik 4. Dünya üzrə ümumi işsizlik səviyyəsi, %-lə**

*Mənbə: Dünya bankının statistik məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Dünya bankının statistik məlumatları əsasında tərtib edilən Qrafik 4 məlumatlarından görünür ki, dünya üzrə ümumi işsizlik səviyyəsi 2009-cu il qlobal maliyyə böhranında 6,51% olmasına baxmayaraq, sonrakı illərdə azalaraq 2019-cu ildə 5.59% olmuşdur. COVİD-19 pandemiyasının təsiri nəticəsində 2020-ci ildə isə 6,6%-ə yüksəlmişdir. Bu isə 2007-2022-ci illər üzrə daha yüksək göstəricidir.

Əhalinin işsizlik səviyyəsinin artması hesabına məşğulluq səviyyəsinin azalması, dünya üzrə qlobal yoxsulluğun artmasını şərtləndirən əsas amillərdən biridir. Əhalinin məşğulluq səviyyəsi 2019-cu ildə 56,8% olsa da, COVİD-19 pandemiyasının fəsadlarına görə azalaraq 2020-ci ildə 55% təşkil etmişdir. Tədqiqatlar göstərir ki, qlobal yoxsulluq 21-ci əsrdə pandemiyanın təsiri **ilə bir nəsildə**

**iki dəfə artdı** və imkansız əhali arasında qeyri-bərabər formada gəlirdə yaranan itkilərin ölkə daxilində və ölkələr arasında bərabərsizliyin kəskin artmasına səbəb oldu. Dünya bankının məlumatlarına görə 2020-ci ildə müvəqqəti işsizlik bütün ölkələrin 70%-də yalnız **orta təhsil almış işçilər** üçün daha yüksək olmuşdur. Gəlir itkiləri xüsusilə gənclər, qadınlar, müstəqil və təsadüfi işçilər arasında daha yüksək olmuşdur. Karantin və sosial məsafə tədbirlərindən daha çox təsirlənən sahələrdə çalışan qadınlar isə daha ciddi gəlir və məşğulluq itkisi yaşamışdır. Pandemiya həmçinin kiçik və orta sahibkarlıq subyektləri, qeyri-rəsmi bizneslər və kreditə çıxışı məhdud müəssisələrin fəaliyyətində durğunluğa səbəb olmuşdur.

Dissertasiya işinin II fəsli **"Qlobal iqtisadi böhranların iqtisad elminin prioritetlərinə təsirinin təhlili və qiymətləndirilməsi"** mövzusuna həsr olunmuşdur. XXI əsrdə baş vermiş qlobal iqtisadi böhranların Azərbaycan iqtisadiyyatına təsirləri müqayisəli şəkildə araşdırılmış, müxtəlif böhran dövrlərinin ölkənin iqtisadi göstəricilərinə təsiri statistik və analitik metodlarla təqdim edilmişdir. Həmçinin Azərbaycan iqtisadiyyatının xarici təsirlərə həssaslığının səbəbləri də əsaslandırılmışdır. Bu yanaşma mövzunun aktuallığını vurğulamaqla yanaşı, milli iqtisadi siyasətə dair dəyərli təkliflər üçün də zəmin yaratmışdır. Bu fəsildə pandemiyanın ölkənin real sektorunda yaratdığı dəyişikliklər iqtisad elminin prioritet istiqamətləri kontekstində təhlil edilmişdir və verilən məlumatlar, statistik qrafiklər və cədvəllər pandemiyanın müxtəlif sektorlar üzrə təsirini daha detallı şəkildə ortaya qoymuşdur. Həmçinin statistik məlumatlara əsaslanan analitik yanaşma ilə pandemiyanın iqtisadi və sosial nəticələrinin iqtisad elminin yeni prioritet istiqamətlərini necə aktuallaşdırdığı izah edilmişdir. "Pandemiya dövründə rəqəmsal iqtisadiyyatın iqtisadi fəaliyyətin dinamikasına təsirinin qiymətləndirilməsi"- pandemiya dövründə rəqəmsal iqtisadiyyatın mühüm rolunu göstərməklə yanaşı, rəqəmsal transformasiyanın Azərbaycan iqtisadiyyatının şaxələndirilməsindəki əhəmiyyətini də ortaya qoyur. Aparılan ekonometrik təhlil əsasında rəqəmsal iqtisadiyyatın innovativ inkişafı istiqamətində tədqiqatlara ayrılan xərclərin artımı ilə elmtutumlu məhsul istehsalının güclü korrelyasiyası

müəyyən olunmuşdur və bu dəyişikliklərin iqtisadi inkişaf strategiyalarında nəzərə alınmalı olduğu da əsaslandırılmışdır.




**Qrafik 5. Azərbaycan Respublikasında ÜDM üzrə əsas göstəricilərin 2007-2022-ci illəri əhatə edən dövrdə dinamikası**

*Mənbə: ARDSK-nin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

COVİD-19 pandemiyasının təsiri ilə dünya üzrə neftin qiyməti 2020-ci ilin aprel ayında 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 3,25 dəfə azalaraq 1 barrel neft 21,04 ABŞ Dolları səviyyəsinə düşmüşdür ki, bu da ölkənin makroiqtisadi göstəricilərinə, o cümlədən, ÜDM-ə də əsaslı şəkildə təsir etmişdir.

Yuxarıdakı qrafik 2007–2022-ci illərdə Azərbaycanın ÜDM göstəricilərinin dinamikasını əks etdirir. 2007–2014-cü illərdə iqtisadi artım əsasən neft-qaz sektorunun inkişafı hesabına yüksək olmuşdur. 2015-ci ildən sonra neft qiymətlərinin düşməsi və qlobal böhranlar ÜDM artımını zəiflətmişdir. 2017-ci ildən iqtisadiyyatda bərpa müşahidə olunmuş, qeyri-neft sektorunun inkişafı üçün islahatlar həyata keçirilmişdir. 2020-ci ildən sonra isə Qarabağ müharibəsindən sonrakı dövrdə iqtisadiyyatın bərpası və yenidən qurulması üçün investisiya və layihələr artmışdır.

Müasir dövrdə iqtisadi böhran və anti-böhran siyasəti qlobal iqtisadiyyatın əsas aktual məsələlərindəndir. COVID-19 pandemiyası isə makroiqtisadi göstəricilərə, xüsusilə qlobal ÜDM-ə ciddi təsir göstərmişdir.

Qlobal ÜDM-in 2007-2022-ci illəri əhatə edən dövr üzrə dinamikası aşağıdakı Qrafik 6 -da təqdim olunub.




**Qrafik 6. Dünya üzrə ÜDM, Mlrd. ABŞ Dolları ilə**

*Mənbə:Dünya bankının məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

Dünya Bankının məlumatlarına görə, 2007-2008 və 2014-2015 maliyyə böhranları ilə yanaşı, COVID-19 pandemiyası da qlobal iqtisadiyyata ciddi mənfi təsir göstərmişdir. 2009, 2015 və 2016-cı illərdə dünya üzrə ÜDM azalmış, 2020-ci ildə isə 2,8% (2,51 trilyon ABŞ dolları) düşərək 85,27 trilyon ABŞ dolları olmuşdur. Buna baxmayaraq, qlobal iqtisadiyyat pandemiyanın yaratdığı şokdan tez bərpa olaraq 2021-ci ildə 97,2 trilyon, 2022-ci ildə isə 100,83 trilyon ABŞ dollarına çatmışdır. Araşdırmalar göstərir ki, Rusiya-Ukrayna müharibəsi kimi siyasi böhranlara baxmayaraq, bu artım növbəti illərdə davam edəcək.




**Qrafik 7. Dünya üzrə ÜDM-in proqnoz dinamikası, mlrd. ABŞ Dolları ilə**

*Mənbə: MS Excel proqramında müəllif tərəfindən tərtib edilmişdir.*

Yuxarıdakı qrafikə əsasən, dünya üzrə qlobal iqtisadiyyatla vaxt amili arasında trend modeli y = 40,586ln(x) - 15,215 loqarifmik reqressiya tənliyi ilə ifadə edilir. Tərtib edilmiş trend modelinə görə dünya üzrə ÜDM-lə zaman amili arasında olduqca yüksək korrelyasiya əlaqəsi vardır ($R^2 = 0,9213$).

Proqnoz modelinə görə, 2022–2030-cu illərdə dünya üzrə ÜDM artaraq 2030-cu ildə 115,1 trilyon ABŞ dollarına çatacaq. Mövcud loqarifmik model yalnız zaman amilini nəzərə alır; xarici faktorları daxil etməklə daha realist və dinamik proqnoz hazırlamaq mümkündür:

Yeni model üçün əlavə dəyişənlər daxil edərək çoxfaktorlu reqressiya modeli (Multivariate Regression Model) qura bilərik:

*ÜDM= β0 + β1ln(x) + β2 Inflyasiya + β3 Ticarət Həcmi + β4 Investisiya + β5 Geosiyasi Risklər + ϵ*

Burada:

x – İl (zaman dəyişəni, loqarifmik təsir saxlanılır)

İnflyasiya (β2) – Yüksək inflyasiya iqtisadiyyatı zəiflədə bilər.

Ticarət Həcmi (β3) – Beynəlxalq ticarət həcminin artması ÜDM-in yüksəlməsinə səbəb olur.

İnvestisiya (β4) – Xarici və daxili investisiyalar iqtisadi artımı gücləndirir.

Geosiyasi Risklər (β5) – Müharibələr, sanksiyalar və siyasi qeyri-müəyyənliklər ÜDM-ə mənfi təsir edir.

ϵ – Digər təsadüfi dəyişkənlər (modeldə olmayan, lakin ÜDM-ə təsir edən faktorlar).

**Cədvəl 2.**

| *İl* | *Əsas proqnoz (mlrd. $)* | *Xarici risklər daxil olarsa (mlrd. $)* | *Sürətli inkişaf olarsa (mlrd. $)* |
|---|---|---|---|
| 2023 | 100.10 | 98.50 | 102.30 |
| 2024 | 98.237 | 99.00 | 105.80 |
| 2025 | 100.68 | 100.10 | 110.20 |
| 2026 | 103.65 | 102.00 | 115.30 |
| 2027 | 105.46 | 104.50 | 121.00 |
| 2028 | 107.88 | 107.30 | 127.80 |
| 2029 | 110.92 | 110.20 | 135.50 |
| 2030 | 115.11 | 113.50 | 144.00 |

*Mənbə:Müəllif tərəfindən proqnoz modelinə əsasən tərtib edilmişdir.*

**Əsas ssenari**: Dünya üzrə ÜDM 2030-cu ildə 115.11 trilyon dollara çatacaq.

**Risk ssenarisi:** Müharibələr, iqtisadi böhran və s. olarsa, ÜDM 113.5 trilyon dollar ola bilər.

**Sürətli inkişaf ssenarisi**: Güclü texnoloji inkişaf və ticarət artımı olarsa, ÜDM 144 trilyon dollar ola bilər.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, COVİD-19 pandemiyasının təsiri iqtisadiyyatın digər sektorlarının inkişafına mənfi təsir etsə də, Azərbaycanda informasiya texnologiyaları üzrə gəlirlər 2020-ci ildə 2019-cu illə müqayisədə artmışdır. COVİD-19 pandemiyası ilə əlaqədar olaraq ÜDM-in 2020-ci ildə azalmasına baxmayaraq, bu xərclərin artması innovativ texnologiyaların inkişafını şərtləndirən informasiya-kommunikasiya texnologiyaları (İKT) üzrə əsas kapitala yönəldilən vəsaitlərin həcmini artıraraq İKT

üzrə əlavə dəyərin yaranmasını şərtləndirmişdir[3]. Aşağıdakı qrafikdə bu göstəricilər öz əksini tapmışdır.




**Qrafik 8.** Azərbaycanda İKT üzrə əsas kapitala yönəldilmiş investisiyalar, İKT üzrə yaranmış əlavə dəyər və ÜDM, milyon manatla

*Mənbə: ARDSK-nin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

İKT üzrə əsas kapitala yönəldilən investisiyaların artması iqtisadiyyatın digər sahələrinin inkişafını stimullaşdıraraq onun şaxələndirilməsinə və ÜDM-in artımına mühüm təsir göstərir. Bu baxımdan Azərbaycanda İKT sahəsinə yatırılan investisiyalar, İKT üzrə yaradılan əlavə dəyər və ÜDM arasındakı əlaqə korrelyasiya-reqressiya analizi ilə EViews-12 proqramında araşdırılmışdır. Nəticələr göstərir ki, İKT üzrə investisiyaların 1% artması ÜDM-i 0,21%, İKT üzrə əlavə dəyərin 1% artması isə ÜDM-i 0,98% artırır.

Dissertasiyanın **“Azərbaycan Respublikasında qlobal iqtisadi böhranlara qarşı iqtisadiyyatın tənzimlənmə mexanizminin təkmilləşdirilməsi”** adlanan üçüncü fəslində Azərbaycan Respublikasında qlobal iqtisadi böhranlara qarşı iqtisadiyyatın tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi ilə

[3] www.azstat.org

bağlı aktual məsələlər tədqiq olunmuşdur. Fəsildə ölkənin iqtisadi təhlükəsizliyinin qorunması və qlobal iqtisadi böhranların mənfi təsirlərinin azaldılması üçün müxtəlif strategiyalar, modellər və mexanizmlər təklif olunmuşdur. Azərbaycanın iqtisadiyyatının qlobal maliyyə böhranları, pandemiya kimi qlobal hadisələrə reaksiyası modelləşdirilərək bu hadisələrin ölkənin iqtisadi artımına təsirləri araşdırılır. Burada əsas diqqət makroiqtisadi göstəricilərə, xarici ticarət əlaqələrinin dinamikasına və iqtisadi inkişafın müxtəlif amillərinin roluna yönəlmişdir. İqtisadi dəyişikliklərin səbəb-nəticə əlaqələrini daha ətraflı izah etmək üçün idxal və ixracın iqtisadi artıma təsir mexanizmləri, ticarət dövriyyəsinin müxtəlif tərəfdaş ölkələr üzrə dinamikası korrelyasiya və reqressiya analizləri əsasında aparılmışdır. “Qlobal iqtisadi böhranların ölkənin investisiya cəlbediciliyinə və tədiyyə balansına təsirinin azaldılması istiqamətləri”- təhlil edilmişdir. Araşdırmalarda 2003–2022-ci illər üzrə statistik göstəricilər əsasında qurulmuş iqtisadi modellər vasitəsilə bu əlaqələr korrelyasiya-reqressiya analizləri ilə qiymətləndirilmişdir.

“Qlobal iqtisadi böhranların Azərbaycan iqtisadiyyatına təsirinin yumşaldılmasında antiböhran mexanizmlərinin təkmilləşdirilməsi yolları”- bölməsində dünyada baş verən iqtisadi böhranların və xüsusilə pandemiyaların ölkə iqtisadiyyatına necə təsir etdiyini və bu təsirləri azaltmaq üçün həyata keçirilən tədbirlərin effektivliyini analiz edilir. Həmçinin, dövlətin iqtisadiyyatın müxtəlif sahələrində struktur dəyişiklikləri aparmaqla iqtisadi riskləri azaltdığı və gələcəkdə böhrana qarşı daha hazırlıqlı olmağı təmin etməyə çalışdığı vurğulanır. Burada pandemiya dövründə ölkə iqtisadiyyatına göstərilən zərərləri azaltmaq məqsədilə tətbiq olunan antiböhran tədbirləri, həmçinin COVİD-19 pandemiyasına qarşı atılan addımların və həyata keçirilən islahatların nəticələri ətraflı şəkildə təhlil edilmişdir. Nəticə olaraq, antiböhran tədbirlərinin təkmilləşdirilməsi üçün gələcəkdə tətbiq oluna biləcək yeni metodlar və yanaşmalar təklif olunmuşdur.

Qlobal iqtisadi böhranlar şəraitində antiböhran siyasətinin iqtisad elminin prioritet istiqamətlərindən biri kimi tənzimlənməsi və təkmilləşdirilməsi yolları müəyyənləşdirilmişdir. Qloballaşan dünya

iqtisadiyyatının müasir inkişaf mərhələsi üzrə tədqiqatlar göstərir ki, dünya miqyasında baş verən iqtisadi böhranlar nəticəsində hər bir ölkənin qarşılaşdığı sosial-iqtisadi problemlərin həllində, hökumətin əsas funksiyası antiböhran tədbirlərinin tənzimlənməsinin həyata keçirilməsi üzrə kompleks tədbirlərin işlənib hazırlanmasıdır. Dünya miqyasında baş verən iqtisadi böhranlarla müqayisədə insan ölümü ilə nəticələnən virusların yaratdığı böhranın fəsadlarının aradan qaldırılması isə daha dolğun tənzimlənmə sistemini tələb edir.

Araşdırmalar göstərir ki, bütün böhran vəziyyətlərinin həlli sahəsində dövlət siyasəti böhran vəziyyətlərinin aradan qaldırılmasına, dövlət sistemi institutlarının və iqtisadi sistemin tarazlıq vəziyyətinin təmin edilməsinə yönəlmiş dövlətin və cəmiyyətin inkişafı strategiyasının işlənib hazırlanmasından və həyata keçirilməsindən ibarətdir. Böhranların idarə edilməsi sahəsində dövlət siyasəti təşkilatların müflisləşməsi nəticəsində dəymiş sosial və iqtisadi zərərin azaldılmasından ibarətdir. Onu da qeyd etmək lazımdır ki, səmərəsiz müəssisələrin sıradan çıxması bazar iqtisadiyyatında onun böyüməsini və inkişafını təmin edən ən mühüm amildir. Dövlətin antiböhran siyasəti aşağıdakı üç səviyyədə həyata keçirilir:

1.Milli iqtisadiyyatın əsas sahələrinin rəqabət qabiliyyətinin saxlanılması;

2.İqtisadi və sosial əhəmiyyətli sahələrdə, məsələn, bank və ya ictimai nəqliyyatda böhranların qarşısının alınması;

3.Müəssisənin müflisləşməsinin mənfi nəticələrinin azaldılması, onun işçilərinin və kreditorlarının maraqlarının maksimum dərəcədə təmin edilməsi.

# NƏTİCƏ

COVID-19 pandemiyasının timsalında qlobal iqtisadi böhranların iqtisad elminin prioritetlərinə təsiri nəzəri və empirik baxımdan təhlil edilərək qiymətləndirilmiş, bu əsasda aşağıdakı nəticə və təkliflər irəli sürülmüşdür:

1. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, qlobal iqtisadi böhranların aradan qaldırılması üçün iqtisadi nəzəriyyələrin və qabaqcıl beynəlxalq təcrübələrin sintezinə əsaslanan yanaşmaların tətbiqi iqtisad elminin mühüm prioritet istiqamətlərindən birinə çevrilməlidir.

2. Statistik məlumatlar əsasında XIX əsrin sonlarından etibarən baş vermiş əsas qlobal iqtisadi böhranların müqayisəli təhlili aparılmış, onların başvermə müddəti, yayılma coğrafiyası, ÜDM dinamikası, işsizlik səviyyəsi və tədiyyə balansına təsiri araşdırılaraq qlobal böhranların inkişafında ümumi meyillər və xüsusiyyətlər müəyyən edilmişdir.

3. Müəyyən edilmişdir ki, iqtisadi böhranlar tələb və təklif tarazlığının pozulması nəticəsində beynəlxalq ticarət münasibətlərinə güclü təsir göstərərək iqtisadi inkişaf tempinin zəifləməsinə səbəb olur ki, bu da makroiqtisadi sabitliyin və beynəlxalq ticarət sisteminin dayanıqlılığının iqtisad elminin prioritet istiqamətlərindən biri olduğunu göstərir.

4 Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, COVID-19 pandemiyası da daxil olmaqla qlobal iqtisadi böhranlar beynəlxalq ticarətin həcminin azalmasına səbəb olmuşdur və dünya üzrə ixracın həcmi ilə zaman amili arasında $y = 3{,}6027\ln(x) + 15{,}851$ loqarifmik formalı korrelyasiya asılılığı mövcuddur ki, bu da qlobal böhranların beynəlxalq ticarət dinamikasına təsirini göstərir.

5. Müəyyən edilmişdir ki, pandemiya dövründə dövlət büdcəsindən əlavə vəsaitlərin ayrılması və genişmiqyaslı fiskal stimullaşdırma proqramlarının həyata keçirilməsi bir çox ölkələrdə dövlət borcunun artmasına səbəb olmuşdur ki, bu da böhran şəraitində dövlət müdaxiləsinin iqtisadi sabitliyin təmin edilməsində mühüm rol oynadığını göstərir.

6. Müəyyən edilmişdir ki, COVID-19 böhranı dövründə maliyyə dəstək paketlərinin ÜDM-də payı inkişaf etmiş ölkələrdə 28–46%, orta yüksək gəlirli ölkələrdə 21%, orta gəlirli ölkələrdə 10%, orta aşağı gəlirli ölkələrdə isə 4–5% təşkil etmişdir. Azərbaycanda isə qeyri-neft ixracının diversifikasiya səviyyəsinin nisbətən aşağı olması xarici ticarətin strukturunda müəyyən uyğunsuzluqlar yaratmışdır.

7. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, qlobal iqtisadi böhranlar dünya bazarında neft qiymətlərinin kəskin azalmasına səbəb olmaqla xarici ticarət və makroiqtisadi sabitliyə təsir göstərmiş, bu isə Azərbaycan manatının məzənnəsinin zəifləməsi ilə müşayiət olunmuşdur.

8. Müəyyən edilmişdir ki, qlobal iqtisadi böhranlar və pandemiya dövründə kapital və aralıq məhsulların idxalında azalma müşahidə olunmuş, bu isə istehsalın xammal və kapital təminatının zəifləməsinə və orta və uzunmüddətli dövrdə istehsalın azalması risklərinin artmasına səbəb olmuşdur.

9. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, COVID-19 pandemiyası həm dünya üzrə, həm də Azərbaycan iqtisadiyyatında turizm sektorunun fəaliyyətinə ciddi mənfi təsir göstərmişdir.

10. Pandemiya qlobal təchizat zəncirlərinin kövrəkliyini üzə çıxarmış, uzaqdan iş və rəqəmsal əmək bazarının genişlənməsi isə məşğulluq modellərinin transformasiyasına səbəb olmuşdur ki, bu da iqtisad elminin prioritet istiqamətləri kimi rəqəmsal iqtisadiyyatın inkişafı, insan kapitalının gücləndirilməsi və iqtisadiyyatın struktur dayanıqlılığının artırılmasının aktuallığını göstərir.

## Dissertasiya işində əldə olunan nəticələrə əsasən aşağıdakı təkliflər irəli sürülmüşdür:

1. Qlobal iqtisadi böhranların təsirinin azaldılması məqsədilə Azərbaycanın xarici ticarətinin sahə və əmtəə strukturunun diversifikasiyası təmin edilməli, kiçik və orta sahibkarlığın beynəlxalq iqtisadi fəaliyyətə cəlb edilməsi genişləndirilməlidir. Bu, müəssisələrin beynəlxalq əmək bölgüsündə iştirakını artırmaqla iqtisadiyyatın dayanıqlılığını gücləndirə bilər.

2. Azərbaycan iqtisadiyyatının ixrac strukturunun yüksək dərəcədə neftdən asılı olması nəzərə alınaraq qeyri-neft sektorunun inkişafı və ixrac potensialının artırılması prioritet istiqamət kimi müəyyən edilməlidir. Bu məqsədlə ölkənin müqayisəli üstünlüyə malik olduğu məhsul və sahələr üzrə istehsalın genişləndirilməsi və post-konflikt ərazilərdə yeni iqtisadi fəaliyyət sahələrinin yaradılması məqsədəuyğundur.

3. Böhran şəraitində iqtisadi aktivliyin qorunması üçün əhalinin sosial müdafiə mexanizmləri gücləndirilməli, məşğulluğun qorunması və yeni iş yerlərinin yaradılması istiqamətində dövlət investisiyaları artırılmalıdır. Eyni zamanda əmək bazarında çevik və innovativ iş modellərinin (uzaqdan iş, hibrid məşğulluq və s.) tətbiqi genişləndirilməlidir.

4. Makroiqtisadi dayanıqlılığın artırılması məqsədilə Azərbaycanda maliyyə bazarlarının, xüsusilə fond və qiymətli kağızlar bazarının inkişafı sürətləndirilməli, bu vasitə ilə iqtisadiyyatda geniş pul kütləsinin payının artırılması təmin edilməlidir. Bu yanaşma gələcək iqtisadi böhranların təsirinin azalmasına xidmət edə bilər.

5. Rəqəmsal iqtisadiyyatın inkişafı məqsədilə informasiya-kommunikasiya texnologiyalarının infrastrukturu genişləndirilməli, telekommunikasiya şəbəkələrinin əhatə dairəsi artırılmalı və xüsusilə işğaldan azad olunmuş ərazilərdə müasir rabitə və enerji infrastrukturu yaradılmalıdır. Bu tədbirlər real sektorda sahibkarlıq fəaliyyətinin aktivləşməsinə və rəqəmsal bərabərsizliyin azalmasına şərait yaradacaqdır.

6. Qlobal böhranların təsirinin azaldılması məqsədilə beynəlxalq iqtisadi əməkdaşlıq gücləndirilməli, xüsusilə qlobal səhiyyə sistemlərinin inkişafı və beynəlxalq ticarət axınlarının davamlılığının təmin olunması istiqamətində dövlətlərarası koordinasiya artırılmalıdır.

7. Təchizat zəncirlərinin sabitliyinin təmin edilməsi üçün ixracatçıların dəstəklənməsi, yeni xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi, yerli istehsalın inkişafı və daxili istehsal zəncirlərinin gücləndirilməsi istiqamətində iqtisadi siyasət tədbirləri həyata keçirilməlidir.

8. Qlobal böhranlardan daha çox zərər çəkən turizm sektorunun bərpası üçün turizm müəssisələrinə vergi güzəştləri, subsidiyalar və maliyyə dəstəyi mexanizmləri tətbiq edilməli, pandemiya sonrası dövr üçün təhlükəsiz və dayanıqlı turizm xidmətlərini təşviq edən marketinq strategiyaları hazırlanmalıdır.

9. Pandemiya dövründə nəqliyyat sektorunda yaranmış azalmaların aradan qaldırılması məqsədilə dövlət dəstəyi proqramları həyata keçirilməli, xüsusilə daxili və regional nəqliyyat əlaqələrinin bərpası və genişləndirilməsi təmin edilməlidir.

10. Qlobal iqtisadi böhranların təhlili göstərir ki, klassik və keynsçi iqtisadi yanaşmaların imkanları böhran şəraitində məhdudlaşır. Bu baxımdan iqtisad elminin prioritet istiqamətlərindən biri kimi antiböhran iqtisadi siyasətinin və anti-siklik makroiqtisadi idarəetmə modellərinin təkmilləşdirilməsi məqsədəuyğun hesab olunur.

11. Qlobal iqtisadi böhranların təsirinin azaldılması və iqtisadi sabitliyin təmin edilməsi məqsədilə iqtisadi göstəricilərin real vaxt rejimində monitorinqini, potensial risklərin erkən mərhələdə aşkarlanmasını və operativ qərarların qəbulunu təmin edən süni intellekt əsaslı rəqəmsal antiböhran erkən xəbərdarlıq sisteminin yaradılması məqsədəuyğun hesab olunur.

## Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:


1. Piriyev, Q.M. İqtisad elminin tədqiqat metodlarının tətbiqi xüsusiyyətləri // – Bakı: Audit, 2022. №4, – s. 101-110.

2. Piriyev, Q.M. Causes and characteristics of crisis situations //– Bakı: Elmi Xəbərlər Jurnalı, Qərbi Kaspi Universiteti- İctimai və texniki elmlər seriyası, – 2023, 4, – s. 81-87.

3. Piriyev, Q.M. The coronavirus pandemic: economic implications and challenges //– Bakı: Geostrategiya, – 2023, 5, – s. 127-130

4. Piriyev, Q.M. Management methodology of global economic crisis // – Bakı: Elmi Xəbərlər Jurnalı, Qərbi Kaspi Universiteti- İctimai və

texniki elmlər seriyası, – 2023, 3, – s. 125-129.

5. Piriyev, Q.M. İqtisadiyyatda böhranların identifikasiyası və mübarizənin metod və vasitələri// Yaşıl İqtisadiyyat Davamlı İnkişafın Modeli Kimi, Beynəlxalq Elmi-Praktiki Konfrans. Bakı, Azərbaycan, – 2024, – s. 377-379.

6. Piriyev, G.M. The coronavirus pandemic and issues of social responsibility summary //–Warsaw: International Journal of Innovative Technologies In Economy, – 2024, 45 (1), – p. 1-10.

7. Piriyev, G.M. Effects of the Covid-19 crisis on Azerbaijan - Economic Analysis (analysis of 2019-2021) // Challenges and problems of modern science, X International scientific and practical conference. London, United Kingdom, – 2023, – p. 38-40.

8. Piriyev, G.M. Effects of the Covid-19 crisis on the economy // Challenges and problems of modern science, IX International scientific and practical conference. London, United Kingdom, – 2023, – p. 7-8.

9. Piriyev, G.M. How pandemics drive government and business-oriented actions in ensuring corporate social responsibility // The modern vector of the development of science, VIII International scientific and practical conference. Philadelphia, USA, – 2023, – p. 20-24.

Dissertasiyanın müdafiəsi _____ ____________ 2026-cı il tarixində saat _____ Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.10 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1143, Bakı şəhəri, Hüseyn Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun rəsmi internet saytında (economics.com.az) yerləşdirilmişdir.

Avtoreferat _____ _________ 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 04.03.2026

Kağızın formatı:A5

Həcm: 41259

Tiraj: 100